ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 7 (4930) • 29 SENTYABR 2022-ci il • Qəzet 1932-ci ildən çıxır

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər edib.

Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar.

Azərbaycan Prezidenti burada çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

- Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib, yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq.

Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müsəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

◆ ◆ ◆

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12.00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Goranboyda anım günü

Erməni hərbi birləşmələrinin Vətənimizə qarşı, 27 sentyabr 2020-ci il tarixdən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri və rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda Şanlı Vətən müharibəsinə başlanmasından 2 il ötür. Artıq ikinci ildir ki, 27 sentyabr - Vətən Müharibəsi Şəhidlərimizin Anım Günü kimi qeyd edilir.

Bu gün Goranboy rayonunda da Anım günü ilə bağlı ümumrayon tədbiri keçirildi. Goranboy şəhəri Şəhidlər Xatirə-Abidə Kompleksində keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun digər rəhbər şəxsləri, Şəhid ailələri, Qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Tədbir iştirakçıları öncə, torpaqlarımızın azadlığı uğrunda canından keçən Şəhidlərimizin xatirəsinə inşa edilmiş Xatirə-Abidə Kompleksini ziyarət ederək Şəhidlərimizin ruhlarına dualar etdilər və Şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında, Qarabağın azadlığı və ərazi bütövlüyümüzün təmin olunması uğrunda Rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi və dünya hərb tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Şanlı Vətən Müharibəsi nəticəsində torpaqlarımızın azad olunduğunu və bu gün azad edilmiş torpaqlarımızda əsaslı yenidənqurma işlərinin aparıldığını qeyd edən İcra Başçısı və digər natiqlər çıxışlarında, Vətən, Dövlət, Bayraq naminə canlarını qurban vermiş Şəhidlərimizin əziz xatirəsinin daim ehtiram və sevgi ilə anılacağını bildirdilər.

Anım Günü ilə bağlı, Goranboy şəhəri Heydər Əliyev Parkında və Şəhidlər Xatirə Kompleksi ərazisində 100-dən çox Eldar şamı və Sərv ağacları əkildi.

SƏYYAR GÖRÜŞ – QƏBULLAR

Erkəc kəndində

Gürzallar kəndində

Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır. Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə diqqət mərkəzindədir. Elə buna görə də hər həftə Goranboy Rayon İcra Hakimiyyəti başçısı Məhərrəm Quliyev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur. Sentyabr ayında rayonumuzun Sərov, Yəhərçi Qazaxlar, Gürzallar və Erkəc kəndlərində səyyar qəbullar keçirilmişdir.

Ardı 2-ci səhifədə

SƏYYAR GÖRÜŞ – QƏBULLAR

Yəhərçi Qazaxlar kəndində

Sarov kəndində

Əvvəli 1-ci səhifədə

Bu qəbullar zamanı Məhərrəm Quliyev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Goranboy rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır.

Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

Yaralı hərbiçilərimizi ziyarət etdilər

Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən Milli Məclisin deputatı Ağalar Vəliyev və 96 saylı Goranboy-Naftalan seçki dairəsindən Milli Məclisin deputatı Anar Məmmədov, 12-13.09.2022 ci il tarixlərində Azərbaycan-Ermənistan sərhəddinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində erməni silahlı birləşmələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı yaralanmış və hazırda Bakı şəhəri Mərkəzi Klinik Hospitalında müalicə alan goranboylu hərbiçilərimizi ziyarət etdilər.

Son mənzilə yola salındılar

12-13 sentyabr 2022-ci il tarixdə Azərbaycan-Ermənistan sərhədlərinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətində erməni silahlı birləşmələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı rayonumuzun dörd həbi qulluqçusu şəhid olmuşdur. Allah rəhmət eləsin!

SƏFİYAR ELŞƏN OĞLU MƏMMƏDOV

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçusu, Goranboy rayonu Qızılhacılı qəsəbəsindən, 01.01.2002-ci il təvəllüdlü Məmmədov Səfiyar Elşən oğlu Kəlbəcər istiqamətində şəhid olmuşdur.

Səfiyar Məmmədov 44 günlük Vətən Müharibəsinin iştirakçısı olmuş, "Hərbi xidmətdə fərqlənməyə görə", "Cəsur döyüşçü" və "Fizulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Həmçinin Türkiyədə keçirilən birgə hərbi təlimlər zamanı Türkiyə Cümhuriyyətinin "Yurdda sülh, cahanda sülh" medalı ilə də təltif olunmuşdur.

Şəhidimiz 15.09.2022-ci il tarixdə Balakürd kənd Şəhidlər Xiyabanında dəfn edildi. Dəfn mərasimində rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Anar Məmmədov, rayonun bütün rəhbər şəxsləri, Şəhid ailələri, Qazilər, rayon ictimaiyyətinin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.

Səfiyar Məmmədov Balakürd kənd qəbirstanlığında dəfn olundu. Tabutuna bükülmüş Azərbaycan Respublikasının üç rəngli bayrağı atasına təhvil verildi.

Başın sağ olsun Vətən!

ÜMİD VÜQAR OĞLU İMAMQULİYEV

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu, əsgər Goranboy rayonu Qaradağlı kəndindən, 28.08.2003-cü il təvəllüdlü İmamquliyev Ümid Vüqar oğlu Kəlbəcər istiqamətində şəhid olmuşdur.

Şəhidimiz 15.09.2022-ci il tarixdə Qaradağlı kənd qəbirstanlığında dəfn edildi. Dəfn mərasimində rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Anar Məmmədov, rayonun bütün rəhbər şəxsləri, Şəhid ailələri, Qazilər, rayon ictimaiyyətinin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər. Onun tabutuna bükülmüş Azərbaycan Respublikasının üç rəngli bayrağı atasına təqdim olundu.

Başın sağ olsun Vətən!

ÖMƏR MUĞAN OĞLU ŞİRİNOV

Kəlbəcər rayon sakini, Goranboy rayonu Aşağı Ağcakənd qəsəbəsində məskunlaşmış 1999-cu il təvəllüdlü, leytenant Şirinov Ömər Muğan oğlu Zeyvə kənd qəbirstanlığında dəfn edildi.

Dəfn mərasimində Goranboy, Kəlbəcər və Xocalı rayon İcra Hakimiyyətlərinin başçıları, hərbiçilərimiz və ictimaiyyət nümayəndələri iştirak etdilər. Şəhidimizin ruhuna dualar oxundu, ailə üzvlərinə Allahdan səbr dilədilər.

YUSİF ASİF OĞLU QURBANOV

Müdafiə Nazirliyinin "N" saylı hərbi hissənin xüsusi təyinatlı qoşunların giziri, Goranboy rayon Şəfəq kənd sakini 1998-ci il təvəllüdlü Qurbanov Yusif Asif oğlu, 12-13 sentyabr tarixlərində Azərbaycan-Ermənistan sərhəddinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində erməni silahlı qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı Kəlbəcər rayonu istiqamətində yaralanmış, Bakı şəhəri Mərkezi Hərbi Klinik Hospitalda ayağı amputasiya olunmuş, 17.09.2022-ci il tarixdə həmin Hospitalda vəfat etmişdir.

Şəhidimiz 18.09.2022-ci il tarixdə Şəfəq kənd qəbirstanlığında dəfn edildi. Dəfn mərasimində Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Ağalar Vəliyev, rayonun bütün rəhbər şəxsləri, Şəhid ailələri, Qazilər, hərbiçilərimiz, ictimaiyyətin və Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri iştirak etdilər.

Şəhid Qurbanov Yusif Asif oğlu Vətən Müharibəsində iştirak etmiş, döyüş zamanı yüngül yaralanmış, "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Fizulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

SENTYABR -- DOĞUM GÜNÜ ŞƏHİDLƏR

44 günlük Vətən müharibəsi Azərbaycana zəfər sevincini bəxş etməklə yanaşı, xalqımızın qəhrəman oğullarını da bir daha bizə tanıtdı, bizə sevdirdi. Neçə-neçə igid oğullar Vətən uğrunda haqq savaşının iştirakçısı, şəhid və ya qazi oldular. Sentyabr doğumlu bu oğulların da qismətinə, taleyinə şəhidlik yazıldı.

Cahangir Məmməd oğlu Qurbanov

Cahangir Qurbanov 1994-cü il senytabrın 23-də Goranboy Rayonunun Borsunlu kəndində anadan olub.

Cahangir Qurbanov 2001-ci ildə Goranboy Rayon Borsunlu kənd T.Əliquluoğlu adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olmuşdur.

2011-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. Subay idi.

2012-ci ildə müddətli hərbi xidmətə yollanıb.Gədəbəy rayonunun N saylı hərbi hissəsində xidmət etmişdir. 2016-cı ildən yenidən Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyə başlamışdır. Xidmətini kəşfiyyatçı olaraq davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cahangir Qurbanov 2020-ci il Sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Talış istiqamətində gedən döyüşlərdə savaşıb. Talış döyüşləri zamanı düşmənin iki postunun ələ keçirilməsində xidmətləri olmuşdur. Cahangir Qurbanov sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olub.

Sentyabrın 29-da Goranboy Rayon Borsunlu kənd Qəbiristanlığının Şəhidlər Xiyabanında dəfn olunub.

Ölümündən sonra "Vətən Uğrunda" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif olunub.

Orxan Elxan oğlu Cümşüdov

Cümşüdov Orxan Elxan oğlu 1993-cü il sentyabrın 1-də Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub. 2015-ci ildə Gəncə Dövlət Universitetinin Menecment ixtisası üzrə məzunu olub.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Cümşüdov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbay- canın ərazi bütövlüyünün bərpa olun- ması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Orxan Cümşüdov noyabrın 4-də Xocavənd istiqamətində düşmən üzərinə hücuma kecərkən şəhid olub. Goranboy rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Orxan Cümşüdov ölümündən sonra "Vətən uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğulları daim qəlbimizdə yaşadaq.

İcra hakimiyyəti köməklik göstərəcək

14 sentyabr 2022-ci il tarixdə, Goranboy rayonu Tatarlı kənd sakini 1966-cı il təvəllüdlü Babayev Azad Kalso oğluna məxsus, ümumi sahəsi 160 kv.m olan fərdi yaşayış evi yanaraq yararsız vəziyyətə düşmüşdür.

Goranboy rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Seymur Nazarov baş vermiş hadisə ilə bağlı vətəndaşa baş çəkdi, mövcud durumla yerində tanış oldu və bununla bağlı, rayon İcra Hakimiyyəti tərəfindən müvafiq köməkliyin göstəriləcəyini bildirdi.

"Hazır tabutda gedənlər"

Biz tankçılar öz aramızda özümüzü belə adlandırırdıq. "Hazır tabutda gedənlər". Bu sözləri 44 günlük müharibənin iştirakçısı , qazimiz, tankçı Ramin mənimlə müsahibəsi zamanı söylədi.

Ramin Şahin oğlu Şirinov 1981-ci il fevralın 21-də Goranboy rayonunun Xanqərvənd kəndində doğulub, Xanqərvənd kənd orta məktəbini bitirib. Məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə gedib. Hərbi xidmətdə qulluq edə-edə hərbi məktəbə daxil olub tank ixtisasına yiyələnib. Daha sonra tank komandiri olaraq hərbi hissədə çalışıb.

Raminlə danışdığımız kimi redaksiyada görüşdük.

Məğrur görkəmli, sərt baxışlı, amma daxilən daha kövrək olan qəhrəmanımla daha yaxından tanış olaq.

--Ramin, səni daha çox hərbiyə bağlayan nədir?

--Bizim ailəmiz demək olar ki əsasən hərbiçilər olub. Əmilərim, atam birinci Qarabağ müharibəsinin iştirakçıları olub. Evimizdə həmişə mövzu müharibə olub, erməni vəhşiliyi, Xocalı faciəsi. Mən bu söhbətlərlə böyümüşəm. Erməni vəhşiliyini görməsəm də söhbətlərdə, xüsusi tədbirlərdə bunun şahidi olmuşam. Və hər kəs kimi məndə müharibənin tezliklə olmasının, torpaqlarımızın qaytarılmasının arzusunda olmuşam. Çünki, hamı görürdüki erməni öz xoşu ilə torpaqlarımızdan çıxası deyil.

2020-ci il sentyabrın 27-də saat 6 radələrindən başlayaraq Ermənistan ordusu Azərbaycan ordusunun cəbhə boyu mövqelərinə hücuma keçdilər. Ordumuz Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladılar. Artıq gözlədiyimiz gün çatdı. Ön cərgədə rəşadət göstərən ordumuz arxa cəbhədə onlara dəstək olan xalqımız bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirməyə başladılar. Təbil ki mən səkit qala bilməzdim. Minlərcə Azərbaycanın vətənpərvər oğulları kimi mən də könüllü orduya yazıldım. Ancaq səfərbərlikdə yaş həddi var idi, mənim 40 yaşım olduğu üçün və səfərbərlik yaşından çox olduğu üçün məni qəbul etmədilər. Ordumuz hər gün irəlilədikcə, torpaqlarımızı qarışqarış azad etdikcə şəhidlərimizdə olurdu, yaralılarımızda. Döze bilmirdim. Qisas arzusu ilə alışıb yanırdım. Sonra mən cənab nazirə, respublika səfərbərlik baş idarəsinə ərizə ilə müraciət etdim. Sağ olsunlar mənim istəyim yerinə yetdi. Və məni müharibəyə göndərdilər.

--İlk gününü necə xatırlayırsan?

-- Kimki deyir ki mən qorxmuram, çəkinmirəm. bu doğru olmaz. Hər kəsin içində qorxu olur. Müharibəyə gedirsən, demək həmdə ölümə gedirsən, nə olacağını heç kim bilmir. İlk döyüşdən ölə də bilərsən, yaralana da bilərsən. Əvvəlcə bizi Ağcabədidə yerləşən həmlə taboruna apardılar. Mən ordudan 2005-ci ildən tərxis olunmuşdum. Görün nə vəxtdan idi tankdan ayrı düşmüşdüm, bir gün içərisində tanka alışmaq lazımdır. Vaxt az idi, müharibə gedirdi. Bir tankda üç heyət olur bunada ekipaj deyilir. Heyətimiz tamamlandı və bizim ekipaj ön cəbhəyə yola düşdü.

-- İstiqamətiniz?

-- Füzuli, Qubadlı istiqamətində ilk döyüşə girdim. Füzulinin müxtəlif kəndlərinin alınmasında, Qubadlının azad olunmasında iştirak etdim.

Tuğ kəndinin alınmasında iştirak etdim. Ermənilər burada elə istehkamlar qurmuşdular ki. Amma yenilməz ordumuz o istehkamları yerləyeksan etdilər. Onlar texnikalarını, yaralılarını, meyidlərini qoyub qaçırdılar. Bu bizə ruh verirdi. Tuğ kəndini tamam azad etdik. Onlar hətta uşaq bağçasında divarlara uşaqları bizə düşmən ruhunda tərbiyələndirən xüsusi plakatlar asmışdılar,özlərinin uydurduqları sərsəm xəritə vurmüşdular.

Topxana meşəsinə girdik. Topxananı yarə-yarə necə keçdiyimizi bir allah bilir. Hansı ki meşəyə tankla girmək mümkün sayılmırdı. Amma biz çox namümkünü mümkünə döndərdik. Sonra Daşaltıya düşdük. Hətta burda kəlmeyi şəhadətimizi deyib girdik döyüşə. Buradada çox ağır döyüşlərimiz oldu. Daşaltıda olduğumuz zaman uzun illər hərbçi olan əmim Mehman Şirinova zəng vurdum halallaşmaq üçün. Soruşdu ki, hardasan. Bircə kəlmə dedim Daşaltıda. Soruşdu, necə, tankla? Dedim hə. Başqaları bilməsə də hərbçi olan gözəl bilir ki bu nə deməkdi. Çünki strateji cəhətdən onlar yüksəklikdə bizsə çökəkdə idik. Hər şey ola bilərdi. 16 yaşında oğlum və 4 yaşında bir qızım var. Həyatı hələ tam dərk etməyən qızım. Əmimə tapşırdım qızımı. Nəsə olar olmaz deyə.

Daşaltıya girdik çıxdıq. Dar bir çığırla 42 tonluq tankla Şuşaya tərəf yön aldıq. Sıx yerlə irəliləyirdik. Hər tərəfdən bizi vururdular. Qalxdıq Şuşaya. Şuşa sözünün yazıldığı yerə çatdıq. Təsəvvür belə edə bilmazsiniz ki biz hansı hissləri keçirirdik.Bizim bölük xüsusi təyinatlıların tank bölüyü idi. Bizə tapşırıq verilmişdi ki biz girişi tutaq, ki ermənilər təzədən Xankəndindən Şuşaya girə bilməsin. Artıq noyabrın 7-də biz tankçılar Şuşanın giriş qapısında idik. Əfsanəvi oğullarımız isə ermənin gözləmədiyi istiqamətdə sıdırım qayalıqlarla irəliləyirdi. Elə bir çətin, keçilməz yerlərlə irəliləyirdilər ki, heç filmlərdə elə səhnələr olmur. Allaha şükürlər olsun ki, bizə verilən tapşırığın öhdəsindən tam gelə bildik.

Ali Baş Komandan İlham Əliyevin hər gün xalqa xoş xəbər verməsi üçün canımızdan keçməyə nəinki hazır idik, canımızdan keçirdik. Şərəf müharibəsində insanın canı onun üçün bir heçdir, əsas qürur, mənlik, kişilikdir. Biz Ali Baş Komandanımızın, cənab Prezident İlham Əliyevin həm qələbəmizi istəməyən dünya gücləri, həm də mənfur Ermənistan dövləti ilə necə mərdliklə mübarizə apardığını görürdük.

Şuşa qayalıqlarında tank sürmək mümkün deyil, amma biz sürürdük, heç nədən çəkinmirdik. Tankçıların ömrü bir saniyəlikdir, tank vurulanda 4500 dərəcə istiliyə məruz qalır, adamın heç külü də ələ gelmir. Biz bir saniyədən sonra yox olacağımızı bilə-bilə elə böyük sevgi ilə irəliləyirdik ki, bunu sözlə demək çox çətindir. Öz aramızda özümüzə hazır tabutda gedənlər deyirdik.

Bizə rayonlardan, şəhərlərdən ümumiyyətlə respublikamızın hər yerindən məktublar gelirdi. Belə məktublardan biri də mənə gəlmişdi. Heç bilirsiz bu məktublar bizə necə stimul verirdi. Mən məktubu oxudum çox kövrəldim. Məktubu hələdə saxlayıram.

--O məktubda nə yazılmışdı?

--Bakı məktəblisi idi. Yazmışdı Əsgər, sənin qələbə ilə dönəcəyini gözləyirəm. Hər gün dua edirəmki sağ-salamat qayıdasan. Sən bizim Qarabağımızı işğaldan azad edirsən, qayıt gel bizi sevindir, mən də fəxr edim ki, sənin kimi qəhrəman qardaşım, dostum var.

İnanın ki bu məktubu oxuyandan sonra dedim ki ölməyəcəm, mütləq gedib o uşağı tapacam.

Və tapdımda. Fidan adlı bu qız çox vətənpərvərdi.

--Şuşada döyüşlərin son günündə yaralandın. Bunu necə xatırlayırsan?

--Noyabrın 6-7-8-9 -u döyüşlərin ən gergin anları idi. Elə dostlarım, elə qardaşlarım şəhid oldular ki gözlərimin qabağında. Bilirsiz o çarəsizliyi sözlə ifadə etmək çox çətindi.bir qardaşımız qollarımın arasında can verdi, su deyə-deyə. Anası bilmişdiki o son nefəsində mənim qucağımda olub, dedi oğul, balamın son sözü nə olub. Başımı aşağı saldım cavab verə bilmədim.

Noyabrın 10-da bizim yerimizi bildilər. Üstümüzdə dronlar işləyirdi, amma vura bilmirdilər. Saatlarla raket atdılar. Mən bizim xüsusi təyinatlılarımızı xüsusi vurğulamaq istəyirəm. onlar o qədər gözəl döyüş qabiliyyətinə malik idilər ki, onların yanında tam rahat olurduq, özümüzü ikiqat güclü hiss edirdik. Artıq hədəfdə olduğumuz üçün tankdan düşdüm. Tankdan düşərkən məni mərminin dalğası vurdu, torpağın altında qaldım. Heç nə hiss eləmirdim, ancaq qışqırırdım. Qardaşımız vardı Fariz, o məni torpağın altından çıxartdı. Məni ordan cıxarıb Xocalının Sığınaq kəndinə apardılar. Orada ilk tibb məntəqəmiz yaradılmışdı. Sonra Füzuliyə oradanda Gəncə qospitalına yerləşdirildim. Vəziyyətim o qədər də yaxşı deyildi. Nitqim tutulmuşdu, danışa bilmirdim, beynimə qan sızmışdı.

--Artıq müharibə bitmişdi.

--Amma mən bilmirdim. Fikrim qalmışdı döyüş yoldaşlarımın yanında. Tibb bacısı mənə deyəndəki müharibə bitib, ordumuz qalib gelib sevinc qarışıq elə bir kədər yaşadım ki. Onu sözlə ifadə edə bilmərəm. Gözümün önündə şəhid olmuş qardaşlarım gəldi gözümün önüne, yaralıların qışqırtısı gəldi qulaqlarıma, bərit iyi ilə qan iyinin bir birinə qarışdığı kəskin fərqli bir iyi gəldi burnuma.

Ordumuz sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks -həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə 300 kəndi işğaldan azad etdi. Ordumuz bir güllə atmadan Prezidentimizin apardığı uğurlu siyasət nəticəsində Ağdamı, Laçını, Kəlbəcəri işğaldan azad etdi. Sentyabrın 27-də başlanan haqq savaşımız noyabrın 8-də Şuşanın azad olunması ilə başa çatdı. Noyabrın 9-dan 10-a keçən gecə Prezident İlham Əliyevin iştirakı ilə Üçtərəfli birgə bəyanat qəbul olundu.

Ramin Şahin oğlu Şirinov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə " , "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə, "Cəsur Döyüşçü" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" medalı və "Vətən müharibəsi" medalı ilə təltif olunub.

Ramin həm də Bakı şəhəri Səbail rayon icra hakimiyyətində ictimai şuranın üzvü, Azərbaycan Respublikası Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranları İctimai Birliyinin sədr müavini, eyni zamanda "Dayaq" təşkilatında sədr müavinidir. Allah can sağlığı, uzun ömr versin.

Xuraman ABBASOVA.

İDMANÇILARLA BİR ARADA

Azərbaycan Ağır Atletika Federasiyasının prezidenti, Kənd Təsərrüfatı naziri İnam Kərimov, Gənclər və İdman naziri Fərid Qayıbov, AAF-nın vitse-prezidenti Azər Əliyev, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev və Milli Məclisin deputatı Anar Məmmədov Goranboy rayonu Olimpiya İdman Kompleksində meşəçilər və idmançılarla görüşdülər, ağır atletika idman növünün, həmçinin müxtəlif növlər üzrə idmanın inkişafı, fəaliyyət göstərən məktəblərin maddi-texniki bazasının müasirləşdirilməsi və genişləndirilməsi ilə bağlı aidiyyəti mütəxəssislərlə birgə müzakirələr aparıldı.

ŞANLI TARİXİMİZ

27 sentyabr 2020-ci il Azərbaycan tarixinə, Azərbaycan xalqının yaddaşına Şanlı Zəfərin başlandığı ilk gün kimi yazıldı. Ali Baş Komandan Cənab İlham Əliyevin əmri ilə Ordumuza hücum əri verildi. Həmin gün II Qarabağ müharibəsi (Vətən müharibəsi) başladı. Bütün zabitlərimiz, əsgərlərimiz hər gün yorulmadan, usanmadan, cəsarətlə düşmənin üzərinə gedirdilər. 28 il əvvəl valideynlərinin əlindən tutub o torpaqlardan çıxan bələlarımız indi əllərinə silah alıb düşməni o torpaqlardan çıxarırdılar. Qisas qiyamətə qalmadı. O torpaqlar başda Ali Baş Komandanımızın, Şəhidlərimizin, Qazilərimizin, Əsgərlərimizin və bütün Azərbaycan xalqının dəmir yumruq kimi birləşməsi ilə 44 gün ərzində işğaldan azad edildi. 44 gündə heç bir əsgərimiz bir addım da arxaya çəkilmədi, ancaq irəliyə doğru addımladılar. İtkisiz qələbə olmur, 44 gün ərzində biz 3000-ə yaxın Şəhid verdik. Torpaqlarımızın bütövlüyü uğrunda onlar öz canlarından keçdilər. Onlar torpağı bizə əmanət qoyub getdilər. Şəhidlərimiz bizə tək torpaqlarımızı deyil, eyni zamanda öz doğmalarını, valideynlərini, ailələrini, bacı-qardaşlarını və övladlarını da bu vətənə əmanət qoyub getdilər. Nə qədər ki, Azərbaycan xalqı var Şəhidlər Xiyabanı bizlər üçün müqəddəs yer, Şəhid ailələri isə müqəddəs ocaqdır!

Torpaqlarımızın bütövlüyü uğrunda canından keçən Şəhidlərimizin əziz xatirəsini dərin hüznlə anmaq üçün sentyabrın 27-si Azərbaycanda "Anım günü" kimi qeyd edilir. Bütün iş yerləri, eyni zamanda Təhsil ocaqlarının hər biri Şəhidlərimizin əziz xatirəsini Şəhidlər Xiyabanında dərin hüznlə anırlar, yaxınlarına Allahdan səbr diləyirlər.

27 sentyabr 20 2 2-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev və Mehriban xanım Əliyeva "Anım günü" ilə ilə əlaqədar Şəhidlərimizin əziz xatirəsini yad etmək üçün Füzuli rayonuna səfər etdilər. Füzuli rayon Qaraxanbəyli kəndində Anım gününə həsr olunmuş xatirə lövhəsinin üzərinə gül dəstələri qoydular. Saat 12:00-da Vətən müharibəsi şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Prezidentimiz səfər zamanı çıxış etdi. Prezidentimizin Füzuli rayonuna səfəri təsadüfi deyil. Müharibə başlayan ilk gündən Füzuli rayonunun Qaraxanbəyli kəndi və digər 5 kənd işğaldan azad edilib. İlk Şəhidlərimizi biz məhv burada, bu yerdə vermişik.Ucaldılan abidənin yanında düşmən səngəri yerləşirdi.

Üçrəngli bayrağımız işğal altında olan torpaqlarda dalğalansın deyə Şəhidlərimiz öz canlarından keçdilər.

30 illik işğala 44 gün ərzində son qoyuldu, ədalət bərpa olundu, düşmən məğlub oldu. Doğma torpaqlarımıza qovuşduq. Bu Qələbəni biz başda Ali Baş Komandanımız İlham Əliyev olmaqla şəhidlərimizə, qazilərimizə, ordumuza borcluyuq. Şəhidlərimizin hər biri bizim ölməz qəhrəmanlarımızdı. Onlar xalqımızın qəlbində əbədi olaraq yaşayacaq.

Nigar ALLAHVERDİYEVA,
Goranboy şəhər 1 saylı körpələr evi uşaq bağçasının Musiqi müəlliməsi.

2022-ci ilin 2 sentyabrda İtaliyanın Çernobbio şəhərində keçirilmiş 48-ci Beynəlxalq Çernobbio Forumunda "Enerjitəhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etmişdir

2020-ci ildə İtaliya və Azərbaycan arasında strateji tərəfdaşlığa dair sənəd imzalanmışdır. Ölkələrimiz arasında sıx əməkdaşlıq və strateji tərəfdaşlıq ilə bağlı daim geniş müzakirələr davamlı şəkildə aparılır.

1994-cü ildə müstəqilliyimizin bərpasından 3 il keçdikdən sonra Azərbaycan dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində çalışmağa dəvət edən ilk ölkə oldu. Bunun sayəsində biz Avropa bazarına, əsasəndə İtaliyaya neft ixrac edən ölkəyə çevrildik.

Cənub Qaz Dəhlizi 3 boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir. -Cənubi Qafqaz boru kəməri, Trans-Anadolu (TANAP) boru kəməri və Trans-Adriatik (TAP) boru kəməridir ki, o İtaliyaya qədər uzanır. Bu, 3500 km uzunluğunda mürəkkəb texniki infrastrukturdur.

Önəmli əməkdaşlıq istiqamətlərindən biridə təhsil sahəsidir. Azərbaycanın ADA Universiteti İtaliyanın 5 aparıcı Universitetinin tərəfdaşıdır.

Azərbaycan artıq sabit siyasi mövqeyə malikdir, həmçinin iqtisadiyyatımız da sabitdir və müstəqil olmaq üçün əsaslı maliyyə yatırımları edilib. Buna görə də yeni Qlobal düzənin bizim regiona təsirləri, böyük region ölkələrinin mövqelərinin necə olacağı, Ermənistanla sülhə nail olmaq planlarımızda nələr əldə edəcəyimiz və yeni nəsillərin gələcəyinin necə olacağı bizim üçün önəmlidir.

FHN Aran Regional Mərkəzi
Maarifləndirmə sektoru

STATISTIKA

ƏMƏK HAQQI

2022-ci ilin yanvar-iyun aylarında muzdla çalışan işçilərin sayı 12833 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 8555 nəfər, qeyri-dövlət sektorunda isə 4278 nəfər təşkil etmişdir. İqtisadiyyatda çalışan işçilərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,0 faiz və ya 66 nəfər artmışdır.

2022-ci ilin yanvar-iyun aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin müvafiq dövrünə nisbətən 22,0 faiz artəraq 547,6 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 523,2 manat, özəl müəssisələrdə isə 597,0 manat olmuşdur.

NƏQLİYYAT

2022-ci ilin yanvar-iyun aylarında nəqliyyat sektorunda ümumi məhsul buraxılışı 1631,9 min manat, o cümlədən sərnişin daşınması 1516,2 min manat, yük daşınması isə 115,7 min manat təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə sərnişin daşınması 33,2 faiz, yük daşınması isə 1,4 faiz çox olmuşdur.

QİYMƏT

Goranboy rayonu üzrə istehlak mallarının qiymətləri və xidmət tarifləri 2022-ci ilin yanvar-iyun ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,9 faiz bahalaşmışdır. 2022-ci ilin yanvar-iyun ayları ərzində "Ərzaq məhsulları, içkilər və tütün məmulatı" qrupu məhsullarının qiymətləri əvvəlki ilə nisbətən 18,4 faiz bahalaşmışdır. 2022-ci ilin yanvar-iyun aylarının 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə qeyri-ərzaq məhsullarının qiymətləri 6,7 faiz artmışdır. 2022-ci ilin yanvar-iyun ayları ərzində Goranboy rayonu üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də 10,3 faiz bahalaşma müşahidə olunmuşdur.

TƏHSİL

Ölkənin bütün bölgələrində olduğu kimi, Goranboy rayonunda da əhalinin təhsil səviyyəsi ildən ilə artır. Rayonda 1605 uşağın tərbiyəsi ilə məşğul olan 32 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. 2021/2022-ci tədris ilinin əvvəlinə 2593 müəllimin çalışdığı və 17176 şagirdin təhsil aldığı 79 dövlət gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərir.

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

"Mübariz" qəzeti redaksiyası bildirir ki, 2022-ci ildə qəzetimizdə dərc ediləcək elanların qiyməti aşağıdakı kimidir.

1. Sənədlərin itməsi (etibarsız sayılır) – 10 manat
2. Ad günlərinin təbriki (şəkillə) – 20 manat
3. Kotirovka sorğuları – 20 manat
4. Nekroloq – 20 manat
5. Başsağlığı – 10 manat

Qeyd: digər reklam, elan və anons xarakterli sifarişlərin qiyməti isə səhifədə tutacağı həcmə və mahiyyətinə görə hesablanır.

Radikal müxalifətin 13 sentyabrla bağlı ritorikalarına tutarlı cavablar

2022-ci ilin sentyabr ayının 13-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi geniş miqyaslı təxribatlar bir daha bütün dünyaya göstərdiki, rəsmi İrəvan öz revanşist niyyətlərindən əl çəkmir. Mövcud vəziyyət bütün region üçün təhdid yaradır. Uzun illər ərzində Ermənistan və Ermənistanın ərazisi məhz regionda gərginliyin yaradılması üçün istifadə olunub.

13 sentaybr tarixində baş vermiş təxribat və Ermənistanın siyasi hərbi rəhbərliyinin digər təxribatlarda Avropanın Enerji Təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunu azaldılmasına hesablanıb. Təxribatların təkrarlanması yeni müharibə ehtimalını artırır. Bu səbəbdən ölkəmizdə yaşanan milli həmrəylik mühiti strateji resurs kimi qorunmalıdır.

13 sentyabr tarixində yaşanmış hadisələr bilavasitə siyasi motivli hərbi təxribatdır. Belə ki bu təxribat 15-16 sentyabr tarixində Özbəkistanın Səmərkənd şəhərində keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının növbəti samitində Azərbaycana qarşı təyziqlərinin artırılmasına hesablanıb.

Bütün bunlara baxmayaraq ölkənin rəhbərliyi strateji planlarını həyata keçirməkdə israrlıdır və regionda sülhün və sabitliyin qorunmasında və inkişafında öz səylərini davam etdirəcək.

FHN Aran Regional Mərkəzi
Maarifləndirmə sektoru

REDAKTOR
Xuraman Vaqif qızı

Ünvanımız:2200 Goranboy şəhəri, İlham İsmayılov küçəsi, 31.
mubariz.goranboy@gmail.com
(022) 24-5-19-33
Mob: 051 443 23 60

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 300

Təsisçilər Goranboy rayon İcra hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

"MÜBARİZ"
Sifariş 34
Qeydiyyat nömrəsi 490